**Bakı Ağ Şəhər layihəsi çərçivəsində alınmış daşınmaz əmlaka aid fərdi məlumatın əldə edilməsinə dair**

# T Ə L İ M A T

Bu Təlimat Bakı Ağ Şəhər layihəsi çərçivəsində inşa edilən binalardakı satılmış yaşayış və qeyri-yaşayış sahələrinin alıcıları tərəfindən özlərinə məxsus daşınmaz əmlakın monitorinqini tənzimləyir. Alıcı tərəfindən daşınmaz əmlakın monitorinqinin əsas məqsədi, ona satılmış sahəyə qarşı digər şəxslər tərəfindən yönəlmiş dələduzluq hallarının qarşısının alınmasıdır. Bunun üçün Bakı Ağ Şəhər layihəsi çərçivəsində, tikinti aparan təşkilatlardan asılılığı və tabeçiliyi olmayan müstəqil Daşınmaz Əmlakın Monitorinq Xidməti fəaliyyət göstərir və onun əsas vəzifəsi layihə çərçivəsində satılan yaşayış və qeyri-yaşayış sahələrinin elektron bazasının yaradılmasıdır. Həmin elektron baza hər bir şəxs üçün aldığı yaşayış və qeyri-yaşayış sahəsinin məhz ona satıldığının müəyyən edilməsi imkanını yaradır. Elektron bazaya daxil olan məlumatlar məxfi olaraq qalır və hər bir alıcı yalnız öz daşınmaz əmlakına dair məlumat əldə edə bilir.

Buna nail olmaq üçün, tikini qurumunun vəzifəli şəxsi hər bir satılmış yaşayış və qeyri-yaşayış sahəsi barədə müvafiq məlumatı dərhal Daşınmaz Əmlakın Monitorinq Xidmətinə təqdim edir. Daşınmaz Əmlakın Monitorinq Xidməti satılmış sahə barədə məlumatı elektron bazaya daxil edir və bu məxfi məlumatın alıcı tərəfindən şəxsən əldə edilməsi məqsədi ilə hər bir alıcıya fərdi istifadəçi adı və şifrə təyin edərək, onları plastik kartda əks etdirilmiş halda alıcıya təqdim edir.

**Məlumatların məxfi qalması üçün aşağıdakılara riayət olunması zəruridir:**

1. Sahənin alınmasına dair müqavilə bağlandığı gündən 30 gün ərzində fərdi istifadəçi adınızı və şifrənizi əks etdirən plastik kartın bağlı zərfin içində Sizə təqdim olunmasını müqaviləni imzalayan qurumun vəzifəli şəxsindən tələb edin.
2. Zərfi aldıqda, ona kənar şəxslər tərəfindən müdaxilə olunmasının qarşısını alan holoqramın bütövlüyünə diqqət yetirin.
3. Zərfi açdıqdan sonra plastik kartın arxa hissəsindəki boyanı silərək fərdi istifadəçi adınızı və şifrənizi əldə edin.
4. Fərdi istifadəçi adınızı və şifrənizi əks etdirən plastik kartın bağlı zərfin içində alındığına dair iltizamnaməni imzalayıb, müqaviləni imzalayan qurumun vəzifəli şəxsi vasitəsi ilə Daşınmaz Əmlakın Monitorinq Xidmətinə təqdim edin.
5. **menzilim.bakuwhitecity.com** saytına daxil olaraq istifadəçi adı və şifrəniz vasitəsi ilə fərdi səhifənizi açın və **Bakı Ağ Şəhər**-də aldığınız daşınmaz əmlaka dair məlumatı əldə edin.
6. Fərdi səhifəniz açılmadığı və yaxud fərdi səhifənizdə əks olunan məlumatlar aldığınız daşınmaz əmlaka dair müqavilədəki məlumatlar ilə fərqli olduğu təqdirdə, müqaviləni imzalayan qurumun vəzifəli şəxsi vasitəsi ilə Daşınmaz Əmlakın Monitorinq Xidmətinin nəzarətçi əməkdaşı ilə görüşün təmin edilməsini tələb edin.